**A.F.Aslanova**
***i.ü.f.d., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti***
**ilaheabdullayeva65@gmail.com**
**İ.F.Abdullazadə**
***magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti***

*Məqalə redaksiyaya daxil olub 16.03.2023*
*The article was received by editorial board on 16.03.2023*
*Статья принята к печати 16.03.2022*

# QARABAĞ İQTİSADİ RAYONUNDA MÜŞTƏRƏK MÜƏSSİSƏLƏRİN YARADILMASININ SOSİAL-İQTİSADİ CƏHƏTDƏN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalədə əsas məqsəd Azərbaycanın Dağlıq Qarabağ regionunda yaranacaq müştərək müəsisələrin, onlara bir çox üsullarla yatırılmış investisiyaların ölkəmizə olan iqtisadi əhəmiyyətlərinin indiki vəziyyətini araşdırmaq, ölkə iqtisadiyyatının həcminin artmasında müştərək müəsisələrin fəaliyyətlərindən, yarana biləcək problemləri analiz etməkdir. Həmçinin, tədqiqatda regionda investisiya qoyuluşlarına əngəl ola biləcək məsələləri nəzərdən keçirilərək, regionun iqtisadi-sosial inkişafında müştərək müəsisələrin fəaliyyətlərindən yararlanmağın yolları araşdırılmışdır.*

***Açar sözlər:*** *perspektiv imkanlar, müştərək, Qarabağ, investisiya, Yaşıl enerji, birgə müəsisə*

## GİRİŞ

Dünya ölkələrində var olan iqtisadi ünsürlər qloballaşdıqca müəsisələr getdikcə daha çox müştərək fəaliyyət göstərməyə çalışırlar. Texnologiyanın sürətlə inkişaf etməsi təməl müəsisələrin tez dəyişməsinə səbəb olub onların investisiya ehtiyyaclarını və maliyyə tələblərinidə sürətli şəkildə artırır. Günümüz dövründə müəsisələr sərmayə risklərini paylaşma istəyindədirlər. Ölkələrin xarici investorlara, yeni texnoloji məhsullara olan ehtiyacları müəsisələr arasında müştərəkləşmə prosesinidə günü-gündən artırmaqdadır. Bu səbəblərdən dolayı birgə müəsisələr sürətli dəyişiklik qarşısında müəsisələrə təqdim etdikləri böyük çeviklik səbəbilə bir çox müəsisə tərəfindən bir əməkdaşlıq modeli olmağa davam etməkdədir.

Hazırki dövürdə Qarabağ zonasının inkişafının dinamikasının artırılması, həmin regionun iqtisadiyyatının, infrastrukturunun eyni zamanda insan kapitalının gücləndirilməsi ölkə siyasətinin baçlıca məsələlərindən biridir. Bunun üçün həmin regionda müştərək müəsisələrin fəaliyyəti, qarşılıqlı işləməsi maliyyə xərclərinin azaldılmasına, texnoloji məhsulların regiona, bilavasitə ölkəyə axınına, həmin ərazilərdə infrastrukturun inkişafına zəmin yaradacaqdır.

Milli ictimai rifahın davamlı artımını təmin etmək üçün yüksək, dayanıqlı, əhatəli və əsasən özəl təşəbbüslərə əsaslanan iqtisadi artımın sürətləndirilməsi, əhalinin işğaldan azad edilmiş ərazilərə qayıtmasının təmin edilməsi Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmlənəcək. Bazar islahatları, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznes üçün əlverişli idarəetmə, yerli bazarlara çıxış imkanlarının artırılması üçün ticarət rejimlərinin daha da liberallaşdırılması yolu ilə dövlətin iqtisadiyyatdakı rolunun səmərəli idarə edilməsi iqtisadi artımın əsas təkanverici qüvvəsi olacaqdır. Ölkədə özəl təşəbbüsün yaradıcı və innovativ əsaslarla inkişafı iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə yönəldilməsini təmin edəcəkdir. Həmçinin, investisiya sahəsi iqtisadiyyatın ən mühüm sahələrindən biridir. İnvestisiya siyasətini formalaşdırmaq üçün investora təminat səviyyəsini, zəmanətli minimum mənfəət şəklində, müəyyən risk səviyyəsi və regional hakimiyyət orqanlarının öhdəlikləri ilə müəyyən edən effektiv regional investisiya strategiyası hazırlamaq lazımdır.

## ƏSAS HİSSƏ

Bacarıqlı investisiya siyasətinin aparılması iqtisadi inkişafın investisiya parametrlərinin idarə olunmasını nəzərdə tutur ki, bunlardan biri də investisiya potensialıdır. İnvestisiya potensialını qiymətləndirərkən ərazinin infrastrukturunun inkişafı, innovasiya potensialı, əhalinin intellektual potensialı, resurs komponenti kimi amilləri nəzərə almaq lazımdır. Rayonun investisiya potensialı həm də rayonun təbii xüsusiyyətlərinə, coğrafi mövqeyinə görə formalaşır. Nəzərə alsaq ki, iqtisadiyyatın dinamik inkişafının şərti investisiya proseslərinin inkişafıdır, dövlət tərəfindən seçilmiş investisiya potensialının inkişafı strategiyası regiona strateji investisiyaların cəlb edilməsi üçün real imkanları müəyyən edir və nəticədə investisiyaların sürətini müəyyən edir.

Rayon iqtisadiyyatının inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün əsas amil investisiyaların cəlb edilməsi məsələsidir. Məsələn, Kəlbəcər rayonu yüksək resurs, istehsal, elmi-texniki və insan potensialına malik regiondur. Bütün bunlar əlverişli investisiya mühitinin formalaşmasına kömək edir və regionu istənilən sənaye profilli istehsal müəssisələrinin yerləşdirilməsi üçün optimal yerə çevirir. İnvestisiya cəlbediciliyinin yüksək səviyyəsi investor investisiya obyekti seçdikdə və investisiya prosesinə başlamaq qərarına gəldikdə stimul rolunu oynayır. Ümumilikdə qeyd etmək olar ki, investisiya potensialı region iqtisadiyyatının inkişafında və investisiya mühitinin formalaşması və regionun cəlbediciliyi üçün əsas rolunu oynayır.

Perspektiv dövrdə işğaldan azad edilmiş rayonlarda ənənəvi sahələrlə yanaşı, meyvə-tərəvəzçiliyin, eləcə də heyvandarlığın yem təminatı baxımından yem bitkilərinin inkişafı nəzərdə tutulur. Torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla, çoxillik əkinlərin strukturunda inkişaf perspektivi baxımından nar, xurma, gilas, gavalı, alma, armud bağlarının, baramaçılığın əkininə üstünlük veriləcəyi gözlənilir.

Hazırda ölkədə taxılçılığın və üzümçülüyün faktiki inkişaf dinamikası nəzərə alınmaqla, taxılçılıq və üzüm istehsalında bu rayonun payının təxminən eyni olacağı gözlənilir. Bundan əlavə, Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütün, Ağdam və Füzuli rayonlarında pambıq, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Ağdərə rayonlarında üzüm əkinlərinin bərpası nəzərdə tutulur.

Qarabağda və ətraf rayonlarda "Yaşıl enerji" zonası layihəsinin reallaşdırılması potensial imkanlarla yanaşı, digər amillərlə də şərtlənir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına, ekoloji tarazlığın təmin edilməsinə yönəldiyindən Qarabağın bərpası və yenidən qurulması məsələlərində də bu istiqamət əsas götürülür. Başqa sözlə, "yaşıl enerji" zonası kimi bərpa olunması nəzərdə tutulan Qarabağın dünyanın ən müasir yaşayış məntəqələrindən biri kimi yenidən qurulması vacibdir. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadəyə özəl investisiyaların cəlb edilməsi üçün investorlarla müzakirələr aparılır. Hazırda xarici və yerli investorların Azərbaycanın elektrik enerjisi, o cümlədən bərpa olunan enerji mənbələri sahəsinə marağı artır.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması hədəfləri də sürətli iqtisadi reinteqrasiya vacib rol oynamaqdadır.

Belə ki, yerli və xarici sahibkarlar üçün münbit biznes mühitinin formalaşdırılması istiqamətində islahatların davamı olaraq, Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, yük axınlarının gələcək təmərküzləşməsi və digər mühüm logistika potensialının mövcudluğu Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən Ağdam sənaye parkının yaradılması təşəbbüsünün reallaşdırılmasına imkan vermişdir.

Bununla yanaşı, ölkəmizin ərazi bütövlüyü təmin olunduqdan sonra Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaranmışdır. İşğaldan azad edilmiş ərazilərdə logistika və ticarət fəaliyyətinin həyata keçirilməsi, xidmətlərin göstərilməsi, məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinə maraqlı olan subyektlər tərəfindən bir sıra məlumatların təqdim edilməsi tələb olunur. Belə ki, müəssisənin fəaliyyət sahəsi, mövcud iş yerlərinin sayı, həyata keçirilən və davam edən layihələr, eləcə də təklif edilən təşəbbüsün icra olunacağı inzibati ərazi vahidi, layihənin təsviri, istehsal gücü, investisiya həcmi, investisiya bölgüsü və təyinatı, habelə layihənin icra müddəti, yaradılacaq iş yerlərinin sayı, istifadə olunacaq xammal, texnologiya, satış bazarı kimi məlumatlar üzrə müvafiq təhlillər aparılır və uyğun olacağı təqdirdə sahibkarlıq subyektləri ilə müzakirələr həyata keçirilir. Ümumilikdə, yerli və xarici investisiya layihələri bir neçə istiqamət üzrə: iqtisadi təhlil; institusional təhlil; marketinq təhlili; texniki və təşkilati qiymətləndirmə; sosial səmərəliliyin qiymətləndirilməsi təhlil edilir. Bu sahələrin hər biri üzrə nəticələr ölkə, o cümlədən işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş milli prioritetlər nəzərə alınmaqla həyata keçirilir

**Cədvəl 1**

**Bölgələrdə fəaliyyət göstərən sahibkarların qarşılaşa biləcəyi mənfi və müsbət amillər-PESTLE**

| *Müsbət üstünlüklər* | *Mənfi cəhətlər* |
|---|---|
| ***Siyasi*** | |
| ✓ Türkiyə və Gürcüstanla çoxsaylı ticarət sazişləri bağlamaq imkanı.<br>✓ Qonşu dövlətlərlə yanaşı bir çox Avropa ölkələri ilə siyasi əməkdaşlığın artırılması. | ✓ Ermənistanla atəşkəsin pozulması ehtimalı.<br>✓ İşğaldan azad edilmiş ərazilərdə mina basdırılması ilə bağlı xəritələrin verilməsinin yaratdığı problemlərin olması.<br>✓ Siyasi sabitliyin olmaması<br>✓ Yerli əhalinin ermənilərlə yaxınlıqda yaşamaqdan ehtiyat etməsi;<br>✓ Bir sıra ermənipərəstlərin anti -azərbaycan siyasəti; |
| ***İqtisadiyyat*** | |
| ✓ Yerli və xarici investorlar üçün regional potensial<br>✓ Biznesə başlamanın asanlığı;<br>✓ Maliyyə dəstəkləri<br>✓ Vergi güzəştlərinin edilməsi;<br>✓ Onlayn dövlət xidmətləri təşkili;<br>✓ Bu zonada başzarın boş olması;<br>✓ Rəqabətin aşağı səviyyədə olması; | ✓ Rayonun təbii sərvətlərinin ermənilər tərəfindən talan edilməsi;<br>✓ Mütəxəssis çatışmazlığı; |
| ***Sosial*** | |
| ✓ Rayonda yaşayacaq insanların layiqli həyatının təmin edilməsi və yeni xidmət sahələrinin salınması. | ✓ Bəzi ərazilərdə yaşayan ermənilər təhlükəli həyat şəraiti yaradacaqlar. |
| ***Texnologiya*** | |
| ✓ Regionun abadlaşdırılmasında ağıllı kənd və şəhər layihələrinin qurulması müasir və yeni texnologiyaların inkişafına səbəb | ✓ Müharibə ziyanı<br>✓ Müasir texnologiya əskikliyi;<br>✓ Yüksək texnologiyalı |

| | |
|---|---|
| olacaqdır. | məhsulların və İKT olmaması<br>✓ Gələcəkdə işçi qüvvəsinin əksəriyyətinin innovativ texnologiyalara məruz qalması nəticəsində yarana biləcək işsizlik problemi;<br>✓ Vətəndaşların yeni tipli yaşayış sahəsinə uyğunlaşmasında çətinliklər.<br>✓ Azərbaycanlıların ermənilərin məkirli və namərd siyasətindən ehtiyat etmələri; |
| ***Hüquqi*** | |
| ✓ Başlanğıcda yeni sahibkarlar üçün vergi güzəştlərinin mümkünlüyü. | ✓ Məhkəmə və hüquqi prosedurların tətbiqi vaxt tələb edir. |
| ***Ekologiya*** | |
| ✓ Bölgədə su kanallarının və su anbarlarının mövcudluğu.<br>✓ Yaşıl Zonaya çevirmək bacarığı;<br>✓ Ekoloji cəhətdən dayanıqlı şəhər və qəsəbələrin yaradılması;<br>✓ Ekoloji cəhətdən təmiz istehsal və istehlak;<br>✓ Bərpa olunan enerji mənbələrindən istifadənin artırılması; | ✓ Su anbarlarının və kanalların zədələnməsi |

***Mənbə:*** *https://ereforms.gov.az/files/article/pdf/az/928f9df13982b83325e7a69f7205 63df.pdf*

PESTLE analizimizin nəticəsinə uyğun olaraq qeyd etmək olar ki, iqtisadi və sosial baxımdan o cümlədən digər nöqteyi nəzərdən Qarabağ iqtisadi rayonu əlverişli coğrafi relyefə malik olduğundan investisiya qoymaq istəyən sahibkarlar, xarici şirkətlər üçün çox böyük imkanlar təqdim edir, lakin əsas mənfi cəhəti investisiya muhit amillərindəndə biri olan siyasi amildir ki hazırda bölgədəki vəziyyət - tamamilə sülh şəraitinin, atəşkəsin təmin olunmaması həmin sahibkarlar və ölkələr üçün çox böyük riskdir bu səbəbdən investisiya qoymaq marağı aşağı səviyyəyə düşür.

Şuşa, Laçın və Kəlbəcərdə dağ turizmi, ekoturizm, müalicə turizmi, mədəni turizm üçün uyğun sayda digər rayon və şəhərlərin potensialından istifadə edilməsi Qarabağın iqtisadi dirçəlişinə böyük töhfə verəcək. Belə ki, Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərin turizmin inkişafı strategiyasını və siyasətini hazırlayır. Bu qənaətə görə, işğaldan azad edilmiş ərazilərdə bir neçə turizm klasterinin yaradılması vacibdir. Bu, ilk növbədə Füzuli-Xocavənd - Şuşa-Laçın istiqamətidir. Digər klasterdə Füzuli-Cəbrayıl-Zəngilan paraleldir. Zəngilan-Qubadlı 3-cü, Kəlbəcər Laçın 4-cü klasterdir. Beşinci klasterə Bərdə-Ağdam daxildir. Bölgələrin fərdi potensialı baxımından Şuşanın imkanları yüksək qiymətləndirilir. Burada mədəni tədbirlərin təşkili, festival-turizm məhsulları təqdim oluna bilər. Laçın-Kəlbəcər istiqamətində təbiət, qış turizmi və sağlamlıq turizmi, Qubadlı və Zəngilanda mədəniyyət və təbiət, Füzuli, Ağdam, Cəbrayılda mədəniyyət və işğalın nəticələri olan bəzi tikililər saxlanılaraq turistlərə nümayiş etdirilməlidir. Göründüyü kimi, turist axınının coğrafiyası genişlənir. Beləliklə, turistlərin

Xudafərin körpüsü ilə İrandan, Türkiyədən isə Naxçıvan üzərindən gəlməsi mümkün olacaq. Bu iki istiqamətdən işğaldan azad edilmiş ərazilərə turist axını gözlənilir. Həm yerli, həm də xarici investisiyaların reallaşdırılması və belə imkanların daha da təkmilləşdirilməsi üçün aşağıdakılar mühüm şərtlər hesab edilməlidir:

- əlverişli investisiya mühiti yaratmaqla ölkəyə xarici investisiyaların axınının sürətləndirilməsinə şərait yaradılması;
- investisiyaların hərəkətinin beynəlxalq təcrübəsində tətbiq olunan səmərəli formalardan geniş istifadə etməklə ölkədə sənayeləşmə potensialının yaradılması;
- işğaldan azad edilmiş ərazilərə xarici investisiyaların tətbiqi və cəlb edilməsi, onların xalq təsərrüfatının bütün sahələrinə yönəldilməsi;
- birbaşa investisiyalarla yanaşı, ölkəmizin zəif cəlb edilmiş portfel investisiyalarının həyata keçirilməsi üçün əlverişli şərait yaratmaq, bu məqsədlə qiymətli kağızlar bazarını dünya standartlarına uyğun formalaşdırmaq, investisiyaların qorunmasına dair ikitərəfli sazişlərə baxılması lazımdır.

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq, yerli və xarici investisiyalar üçün zəruri hüquqi mühitin daha da zənginləşdirilməsi və təkmilləşdirilməsi, onun mütərəqqi dünya səviyyəsinə uyğunlaşdırılması Azərbaycana xarici investisiyaların yatırılması imkanlarını daha da inkişaf etdirə və ölkənin investisiya qoyuluşunda fəal iştirakına kömək edə bilər.

**NƏTİCƏ**

Tədqiqat nəticəsində əldə edilən digər mühüm cəhət ortaqlar arasında yaşanan problemlərin adətən ediləcək layihənin mürəkkəb quruluşu, tərəflərin üzərinə götürdüyü öhdəliklər və mədəni fərqliliklərdən qaynaqlanmasıdır. Birgə müəssisə tərəfdaşlarının təşkilati mədəniyyətlərindəki fərqliliklər öhdəliklərin həyata keçirilməsində biznes planına uyğun hərəkət etməməyə səbəb ola bilər. Tərəflər öz yanaşmalarına uyğun olaraq alternativ planlara keçməyə meylli ola bilərlər. Beynəlxalq tərəfdaşlıq yalnız ən azı iki şirkət birlikdə işlədikdə deyil, həm də müxtəlif mədəniyyətlərdən olan insanların birlikdə işlədiyi zaman olur. Tərəflər arasında ünsiyyət və məlumat mübadiləsi ilə bağlı problemlər olduqda tərəfdaşlıq düzgün fəaliyyət göstərmir və buna görə də tərəfdaşların bir-birinə bağlı olduğu dəyərlərdən məqsədyönlü fayda əldə edilə bilməz. Bu səbəbdən gələcək tədqiqatlarda informasiya və kommunikasiya idarəçiliyi sahələrindəki problemlərin daha ətraflı təhlili beynəlxalq quruculuq tərəfdaşlıqlarında hansı strategiyanın izlənilə biləcəyinə dair təkliflərin hazırlanmasında faydalı olacaqdır.

Həmçinin işğaldan azad eilmiş ərazilərdə ixrac və idxal əməliyyatları iqtisadiyyata müsbət təsir göstərəcəkdir. İşğaldan azad edilmiş ərazilərimiz mineral-şəfalı sularla zəngindir. Azərbaycanın mineral su ehtiyatlarının 39,6 faizi bu ərazilərin payına düşür. Sovet dövründə Dağlıq Qarabağın mineral suları qablaşdırılaraq ittifaq respublikalarına ixrac edilirdi. İndi təbii mineral su istehsalı üçün bu imkanlar bizə qayıdıb. Düşünürəm ki, burada yeni istehsal müəssisələri tikməklə yüksək keyfiyyətli müalicəvi mineral suları dünyaya ixrac edə bilərik. Həmçinin işğaldan azad edilmiş ərazilərdə yüksək keyfiyyətli müalicəvi su ehtiyatları var, biz bu ərazidə sanatoriya-kurort kompleksləri yaratmaqla, turizm sənayesini inkişaf etdirməklə turizm məhsullarının ixracını artıra bilərik.

İşğaldan azad edilmiş ərazilərimiz yaşıl enerji istehsalının artırılması üçün yeni imkanlar açır. Bu ərazilərdə çoxlu su elektrik stansiyaları tikməklə biz bu əraziləri elektrik enerjisi ilə təmin edəcəyik, həm də ixracımızı artırmaq imkanımız olacaq. Düşünürəm ki, Ermənistan özünü yaxşı aparsa, biz hətta bu ölkəyə də elektrik enerjisi ixrac edə bilərik.

İşğaldan azad edilən ərazilər faydalı qazıntılarla da zəngindir. Bu ərazilərdə 155 növ faydalı qazıntı yatağı aşkar edilmişdir. Bu yataqlardan səmərəli istifadə bizim əlvan metalların ixracını artıracaq. Həmçinin bu sahələrdə tikinti materialları və müxtəlif kimyəvi elementlər sənayesinin formalaşması hesabına yeni növ sənaye məhsulları istehsal edilmiş və ixrac imkanları yaradılmışdır.

İşğaldan çıxarılan ərazilər tranzit dəhlizlərinin genişləndirilməsi üçün yeni imkanlar açır. İmzalanan üçtərəfli bəyanata əsasən, Azərbaycan ilə Naxçıvan arasında quru nəqliyyat dəhlizi yaradılacaq ki, bu da ölkəmizin beynəlxalq tranzit və logistika imkanlarını genişləndirəcək.

Qeyd etmək istəyirəm ki, işğaldan azad edilmiş ərazilər bizim ümumi ərazimizin 20%-ə qədərini təşkil etdiyi halda, bu ərazilərin iqtisadi potensialı respublika iqtisadiyyatının neft-qaz potensialının 20%-dən çoxunu tutacaq və bu, bizim sərvətlərimizin artmasına səbəb olacaqdır.

Müəyyən edilmişdir ki, Qarabağda yaradılacaq müəssisəyə məxsus paylama kanalları və onların bazara, təchizatçılara yaxınlığı kritik uğur amillərindən olacaqdır. Bu amillərlə bağlı təkliflər aşağıda verilmişdir:

• İşğaldan azad edilmiş rayonlarda həm yerli, həm də xarici iş adamları üçün məhsuldar investisiya imkanlarının yaradılıb. İşğaldan azad edilmiş rayonlara sərmayə qoymaq üçün 1300 şirkət müraciət edib ki, onlardan 460-ı 40-a yaxın müxtəlif ölkədən olan xarici şirkətlərdir. Ümumiyyətlə,qeyd olunan həmin sahələrdə idarəedicilərdən biri xarici olduğuna görə, həmçinin xarici ölkə sahibkarlarının bilik, bacarıq və təcrübəsi bir çox yerli sahibkarlardan daha öndə olduğundan tikinti, filiz və aqrar sənayedə fəaliyyət göstərmələri məqsədə uyğundur.

• Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcəkdir. Mədənçıxarma sahəsində təbii ehtiyatlar dövlət–özəl tərəfdaşlığı çərçivəsində dövriyyəyə cəlb olunacaqdır. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaqdır.

• İşğaldan azad edilmiş, inkişafı tələb olunan ərazilər üçün potensial xarici investorların axtarışı və cəlb edilməsi üçün mövcud təşkilatların funksiyalarının vahid dövlət strukturunda cəmləşdirilməsi və ya əlaqələndirilməsi önəmlidir;

• Ölkənin beynəlxalq konvensiya və sazişlərə qoşulması və bir çox dünya dövlətləri tərəfindən qəbul edilmiş qaydalara əməl etmək öhdəliyi götürməsi, habelə ölkənin milli və beynəlxalq maraqlarının, dövlət və cəmiyyətin məqsədlərinin xarici ölkələrdə qorunması və uzlaşdırılması istiqamətində investisiya siyasəti;

• Birbaşa investisiyalarla yanaşı, ölkəmizin zəif cəlb edilmiş portfel investisiyalarının həyata keçirilməsi üçün əlverişli şərait yaratmaq, bu məqsədlə qiymətli kağızlar bazarını dünya standartlarına uyğun formalaşdırmaq, investisiyaların qorunmasına dair ikitərəfli sazişlərə baxılması lazımdır;

• Xarici investisiya əməliyyatlarında gələcək gəlirlərin ilk kapital qoyuluşlarından fərqli olması ehtimalı olduğundan, kapitalın bir valyutadan digər valyutaya köçürülməsini, onun real səviyyəsinin qiymətləndirilməsini və xüsusiyyətlərinin nəzərə alınmasını təmin etmək lazımdır.

• Yaradılacaq müştərək müəssisələrdə əməkdaşlıq edən tərəfdaşlar əməkdaşlığın məqsədini aydın və dəqiq müəyyən etməli, əməkdaşlıq yolu ilə əldə etmək niyyətində olduqları məqsəd və bu məqsədə çatacaq strategiyalar baxımından onlar arasında heç bir fərq olmamalıdır.

• Yaradılacaq Müştərək müəssisədə əməkdaşlıq edən tərəfdaşların fəaliyyət göstərdikləri sahədən fərqli olsalar belə, onlar ayrı-ayrılıqda malik olduqları qabiliyyətlərlə bir-birini tamamlaya bilməlidirlər.

• Partnyorların texnoloji biliklərdən istifadə və texnoloji bilik istehsal imkanları eyni səviyyədə olmalıdır. Ekvivalent texnoloji imkanlar tərəfdaşların yeni texnologiyanın müştərək inkişafına əhəmiyyətli töhfə verə bilər.

• Rəqabət üstünlüyünə nail olmaq üçün əməkdaşlığın əvvəlində resursların bölüşdürülməsi və iş sahələri biznes strukturları üçün uyğun olmalıdır.

• İnvestisiya xərclərinin (AR-GE, texnoloji resursların əldə edilməsi, maşın, avadanlıqların alınması kimi ağır məsrəflər tələb edən investisiyalar) qarşısını almaq üçün müştərək müəssisə əməkdaşlığına girilməməlidir.

• Bütün xərclər birlikdə bölüşdürülməli, əməkdaşlıq nəticəsində əldə ediləcək ümumi dəyər ədalətli və bərabər şəkildə bölüşdürülməlidir.

• Tərəfdaşlar müştərək müəssisə prosesində məqsədə nə qədər nail olunmasına nəzarət etmək və nəticələrin qiymətləndirilməsində bərabər məsuliyyət daşımalıdırlar.

• Qloballaşma prosesi ilə müəssisələr arasında rəqabət artmış və artan rəqabət qeyri-müəyyənlik gətirmişdir. Bununla belə, qeyri-müəyyənliyin də imkanlar ehtiva etdiyini nəzərə alsaq, bizneslər düzgün addımlar, düzgün idarəetmə üslubları və düzgün strategiyalarla böyük üstünlüklər əldə edə və hətta inkişaf edə bilərlər. Bu kontekstdə ortaq müəssisələrdə biznes

menecerləri bütövlükdə görmək, uzunmüddətli perspektivə malik olmaq və qeyri-müəyyənlikləri təfərrüatlara məhəl qoymadan fürsətə çevirmək bacarığına malik olmalıdırlar.

• Xüsusilə çoxmillətli müştərək müəssisə əməkdaşlıq edilibsə, üst rəhbərliyin mümkün problemləri əvvəlcədən müəyyən etmək və həll etmək üçün mexanizmlər qura bilən qətiyyətli, etibarlı, iştirakçı və təşəbbüskar insanlar formalaşdırması müştərək müəssisənin uğuruna əhəmiyyətli töhfə verəcəkdir.

• Qloballaşma prosesində müəssisələrin öz fəaliyyətlərində müvəffəqiyyətli olması üçün demək olar ki, vacib hala gələn müştərək müəssisə əməkdaşlıqlarını idarə edən bütün səviyyələrdə menecerlər müxtəlif mədəniyyətləri tanımalı, onları düzgün təhlil etməli, müxtəliflik və fərqlilikləri tarazlamalıdırlar.

• Müştərək müəssisə müəssisələrində fabrik müdiri, biznes meneceri, xüsusən də müxtəlif millətlərdən olan kadrların meneceri vəzifəsində olan menecerlər münaqişələri və mürəkkəblikləri qəbul etməyi və mənimsəməyi bacarmalıdırlar.

• Formal ünsiyyət müştərək müəssisələrdə mühüm kritik uğur faktorudur. Bununla belə, müxtəlif təşkilat mədəniyyətlərinə malik tərəfdaşlar rəsmi ünsiyyətdə istifadə olunacaq hesabatların vaxtı və formatı ilə bağlı birlikdə qərar verməlidirlər. Bu, ünsiyyətin səmərəliliyinin artmasına və əməkdaşlığın uğuruna kömək edəcəkdir.

• Müştərək müəssisənin strateji əməkdaşlıqlarında uğurun ,bəlkə də, ən mühüm şərti doğru zamanda doğru tərəfdaş, düzgün biznes strategiyası, tərəfdaşların bir-biri ilə uyğunlaşan vahid strateji hədəfə sahib olması və bir-birini əvəz edən tərəfdaşlıq strukturunun yaradılmasıdır.

### ***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Baxşəliyev R. "Qarabağ böyük investisiya məkanına çevrilir: Beynəlxalq təşkilatlar, xarici sərmayəçilər burada reallaşacaq layihələrə maraq göstərirlər", Azərbaycan . -2021.- 14 mart.- S.1-2

**2**. Kərimova T.İ. "İqtisadiyyatın investisiya potensialından effektiv istifadə problemləri" [avtoreferat], Bakı: 2022, 57 s

**3**. Salayev N. "İşğaldan azad olunmuş ərazilərə beynəlxalq investisiya axını başlayır", Bakı Xəbər . -2021.- 10 fevral.- S.4.

**4.** http://www.anl.az/down/meqale/azerbaycan/2022/aprel/792233.htm-"BƏƏ Azərbaycana investisiya layihələrini daha da artıracaq", Azərbaycan . -2022.- 20 aprel.- S.2.

**5.** https://www.economy.gov.az/az

**6.**https://azsiyaset.com/cemiyyet/10340-Qarabagin-berpasinda-xarici-donorlarin-desteyinden-niye-istifade-olunmur-REYLER.html

**7**. http://eco.gov.az/frqcontent/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf

**8**.https://apa.az/az/sosial/rehman-haciyev-qarabaga-deymis-ziyani-hesablayib-bitire-bilmirik-715330

**9.** http://eco.gov.az/frqcontent/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf



**A.F.Aslanova**

*Associate Professor, Azerbaijan State University of Economics*

**I.F.Abdullazadeh**

*master student, Azerbaijan State University of Economics*


## Socio-economical analysis and evaluation of joint ventures in the Karabakh economic region


**Abstract**

*The main goal of the article is to examine the current situation of the joint enterprises that will be created in the Nagorno-Karabakh region of Azerbaijan, the economic importance of the investments invested in them in many ways to our country, and to analyze the problems that may*

*arise from the activities of the joint enterprises in the growth of the country's economy. Also, in the study, the issues that could be obstacles to investments in the region were considered, and the ways of benefiting from the activities of joint enterprises in the economic and social development of the region were investigated.*

***Key words:*** *prospective opportunities, joint, Karabakh, investment, Green energy, joint venture.*

**А.Ф.Асланова**
*доцент, Азербайджанский Государственный Экономический Университет*
**И.Ф.Абдуллазаде**
*магистрант, Азербайджанский Государственный Экономический Университет*

## Социально-экономический анализ и оценка совместных предприятий в Карабахском экономическом районе

**Резюме**

*Основная цель статьи - изучить текущее положение совместных предприятий, которые будут созданы в Нагорно-Карабахском регионе Азербайджана, во многом экономическое значение вложенных в них инвестиций для нашей страны, а также проанализировать проблемы которые могут возникнуть в результате деятельности совместных предприятий в росте экономики страны. Также в исследовании были рассмотрены вопросы, которые могут быть препятствиями для инвестиций в регион, и исследованы способы получения выгоды от деятельности совместных предприятий в экономическом и социальном развитии региона.*

***Ключевые слова:*** *перспективные возможности, совместное, Карабах, инвестиции, Зеленая энергия, совместное предприятие.*